# Qış turizminin ən maraqlı sahəsi - xizəkçilik

Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan 10 yanvar 2018-ci il tarixli iclasında Prezident cənab İlham Əliyev söylədiyi yekun nitqində ölkədə turizmin inkişafı üçün bir sıra la-




yihələrin, o cümlədən Bakıdan sonra Azərbaycanda ikinci turizm mərkəzi olan Qəbələyə turistlərin axınını daha da sürətləndirmək məqsədilə rayonumuza dəmir yolunun çəkilişinin dövlət investisiya proqramına salındığını və dəmir yolunun tikintisinə bu il başlanacağını bildirib.

Qəbələdə turizmin inkişafı istiqamətində görülən işlər, yaradılan müasir infrastruktur, göstərilən xidmətlər hər il bu regiona yüz minlərlə turistin axınına səbəb olur.

Yanvar ayında yağan qar xizəklə buz üstündə sürüşmək istəyənlərin böyük sevincinə səbəb olub. Rayonun dağlıq əraziləri ağ örpəyə bürünüb.

Qarlı dağlarda kanatla gəzintiyə çıxmaq, xizəklə sürüşmək üçün uzaq məsafə qət edərək Qəbələyə gələn turistlər yaradılan şəraitdən razılıq edirlər. Xüsusən də isti ölkələrdən Qəbələyə istirahət etmək üçün gələn ərəb turistlər bu anı yaşamaqdan xüsusi zövq alırlar. Bayram günləri ilə yanaşı adi vaxtlarda da bu istirahət mərkəzinə hər gün 2 mindən çox yerli və əcnəbi turist gəlir. Turizm şirkətləri vasitəsilə Qəbələyə gələn turistlərin ən çox üz tutduğu yerlərdən biri kanat yolları və xizəkçilik mərkəzidir.

Peşəkar təlimçilər turistlərə buz üstə xizəklə sürüşməyi öyrədirlər. Qonaqlar üçün azərbaycan, rus və ingilis dillərində fərdi və ya qrup şəklində xizək dərsləri təşkil olunur. Hazırda xizək trassında 8 sürüşmə zolağı turistlərin istifadəsinə verilib. Burada dağ xizəkçiliyindən ləzzət alaraq istirahət etmək məqsədilə mərkəzə müraciət edən turistlərə lazımi şərait yaradılır.

İstirahət mərkəzinə gələnlərin əksəriyyətinin məlumatlandırılması ehtiyac var. Bu problemi həll etmək üçün informasiya məntəqəsi yaradılıb. İstirahət mərkəzində xizək sürmək üçün lazım olan bütün avadanlıq və geyimlərin satıldığı, eləcə də kirayə verildiyi obyektlər fəaliyyət göstərir.

Qəbələdə qış turizminin inkişafına təkan verən bu istirahət mərkəzinin ərazisi hazırda qalın qar örtüyü ilə əhatə olunub və xizəkçilik üçün əlverişli şərait mövcuddur. Hazırda müxtəlif turizm şirkətləri tərəfindən xizəkçiliklə əlaqədar Qəbələyə xüsusi turlar təşkil edilir.

Qeyd edək ki, istirahət mərkəzinin ərazisində bütün dağ-xizək trassı süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib və gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi üçün şərait yaradılıb. Ümumilikdə 4 kanat xəttinin uzunluğu 6 kilometr, 10 xizək yolunun uzunluğu isə 17 kilometrdir.

**"Qəbələ"**

# Yeni şəkərölçmə cihazları təqdim olunub

Rayon mərkəzi xəstəxanası pasientlərə xidməti daimi yaxşılaşdırmaq, təkmil-



ləşdirmək işini davam etdirir. Bu günlərdə xəstəxana yeni, ən müasir şəkər xəstəliyini müəyyənləşdirmə və şəkərölçmə cihazları alıb. Bu münasibətlə mərkəzi xəstəxanada tədbir keçirilib.

Mərkəzi xəstəxananın baş həkimi Sabir Bayramov tədbirdə şəkərli diabet xəstəliyi, onun profilaktikası və müalicəsi barədə geniş məlumat verib. Baş həkim yeni alınmış «Senso Lite Nova» adlı aparatın funksiyaları haqqında danışıb, sonra həmin aparatlar şəkərli diabet xəstələrinə təqdim olunub.

Tədbirdə iştirak edən şəkərli diabet xəstələri onlara göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**"Qəbələ"**

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

## Polis orqanlarında vakant olan orta rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

**Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi, əməliyyat müvəkkili və yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.**

Cəmi 100 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanlarından və müsahibədən ibarətdir. Test imtahanları – Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərin ümumi vəzifə qabiliyyətini aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar üzrə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, müsahibə – test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçılarla Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas və müəllim (pedaqoq) ixtisası üzrə təhsil almış, yaşı 28-dən yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər orqanlarında xidmətə bərpa olunan və yaxud yenidən qəbul edilən orta və böyük rəis heyəti vəzifələrində işləmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Hacıqabul (1), Xaçmaz (1), Xızı (1), Qubadlı (1), Qusar (1), Saatlı (1), Sabirabad (1), Yardımlı (1) və Şirvan (1) şəhər, rayon polis şöbələrində vakant yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifəsi üçün müsabiqədə yalnız göstərilmiş rayonlarda yaşayış yeri üzrə qeydiyyatda olan və azı 3 il pedaqoji staja malik şəxslər iştirak edə bilərlər.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda (Naxçıvan Muxtar Respublikası istisna olmaqla), qeydiyyatda olan yalnız subay namizədlər respublikanın rayonlarında yaşayış şəraitləri nəzərə alınmaqla müsabiqəyə buraxılacaqlar.

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizənin Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsində qeydiyyata götürülməsi barədə elektron poçt vasitəsi ilə müvafiq məlumat aldıqdan sonra namizədlər yaşadıqları ərazi polis orqanlarına aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi;
- ali təhsil haqqında diplom;
- hərbi bilet (kişilər üçün);
- əmək kitabçası (olanlar üçün);

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.

Müsabiqədə iştirak etmək üçün sənədlər 2018-ci il yanvar ayının 22-dən fevral ayının 21-dək hər gün (istirahət günləri istisna olmaqla) saat 10-dan 17-dək şəhər, rayon polis orqanlarında qəbul olunur.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

**(012) 590-92-37; (012)-590-92-54. (012) 590-93-27;**

**(012) 590-93-45; 012) 590-93-64; (012) 590-95-23.**

**DİN-in Baş Kadrlar İdarəsi**

# Vergi ödəyicilərinin nəzərinə!

**20.02.2018-ci il tarixi aşağıdakı vergi bəyannamələrinin təqdim edilməsinin son günüdür:**

*Əlavə dəyər vergisinin bəyannaməsi*

*Aksiz bəyannaməsi*

*Yol vergisi bəyannaməsi*

*Mədən vergisi bəyannaməsi*

*Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi*

Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannəməsi

Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannəməsi.

# Dağlar Yusifov adına Qəbələ Qızılbalıqartırma zavodu balıq yeminin satınalınması üzrə katirovka sorğusu elan edir

**Sorğular 20 Fevral 2018-ci il tarixədək qəbul olunur**

**Tel-024 20 21-1-33**

**Katirovka komissiyası.**

# Qəbələ Suvarma Sistemləri İdarəsi 2018-ci il üçün katirovka sorğusu elan edir

1. Tikinti materiallarının alınması.
2. Avtomaşınlar üçün ehtiyat hissələrin alınması.
3. Traktorlar üçün ehtiyat hissələrin alınması.
4. Ekskavatorlar üçün ehtiyat hissələrin alınması.
5. İnventar və avadanlıqların, tikinti materiallarının, təsərrüfat malları və dəftərxana ləvazimatlarının və sair malların alınması.

Katirovkalar mart ayının 2-dək qəbul edilir.

**Ünvan:** Qəbələ şəhəri, Əziz Əliyev küçəsi-12

**Telefon: (02420) 3-52-47, (02420) 3-52-46,**

**Tender komissiyası.**

Redaktor
Varis Yaqubov

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Növbətçi redaktor Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərbaycan» nəşriyyatının mətbəəsində çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Sifariş № 373
Tiraj 1700